# Layihənin Xülasə Sənədi

| | |
|---|---|
| Layihə adı: | Unibank, Kapitalın Artırılması və A/B Sindikatlaşdırılmış Kredit |
| Ölkə: | Azərbaycan |
| Layihə ID: | 37901 |
| Biznes sektoru: | Maliyyə İnstitutları |
| Dövlət/Özəl: | Private sector |
| Şura tarixi: | 1 may 2007-ci il |
| Status: | Bankın internet səhifəsində dərc edilərkən bu, DTM-dən avtomatik qaydada əldə edilmişdir. LSX-ni internet səhifəsində dərc edilmək üçün təqdim etməzdən əvvəl DTM-in məlumatlandırıldığını yəqin edin. |
| LSX-nin açıqlandığı tarix:<br>LSX-nin yeniləndiyi tarix: | Bu, Rabitə departamentinin LSX üzrə redaktoru tərəfindən daxil edilir. |
| Layihənin təsviri və məqsədləri: | 1. Kapitalın artırılması – təklif edilən layihə Unibank`ın yeni buraxılan səhmlərinə yazılmaqla onun planlaşdırılan kapital artırılmasında iştirak etməkdən ibarətdir. Layihə Unibank`a əhəmiyyətli artım imkanlarını təmin edəcək və onun bazarda aparıcı mövqeyini saxlamasına köməklik göstərəcəkdir.<br><br>2. A/B Sindikatlaşdırılmış Kredit – bu, AYİB-in Unibank`a təşkil edəcəyi 3-cü sindikatlaşdırılmış kreditdir. Layihə ümumi korporativ maliyyələşdirmə, o cümlədən mikro, kiçik və orta sahibkarlıq, ticarətin maliyyələşdirilməsi və istehlak sahələrinin maliyyələşdirilməsi üçün istifadə ediləcəkdir, lakin bunlarla məhdudlaşmayacaqdır. |
| Keçid təsiri: | Hər iki layihənin yüksək keçid təsiri olacaqdır. Bu, məxsusi olaraq Unibank`ın bazarda öz mövqeyini saxlamasına köməklik göstərəcək, daha önəmlisi isə, onun artım və inkişafının irəliləməsini dəstəkləyəcəkdir. Bu isə öz növbəsində bank sektorunda rəqabəti alovlandıracaq, biznesdə davranış standartlarını təkmilləşdirəcəkdir. |
| Müştəri: | Azərbaycan Respublikasının aparıcı özəl bank qurumlarından biri olan Unibank Komersiya Bankı açıq tipli səhmdar şirkəti 2002-ci ildə M-Bank və Promtexbank`ın birləşməsi nəticəsində təsis edilmişdir. AYİB Unibank`da 15%-lik paya sahib olan səhmdardır. |
| AYİB tərəfindən maliyyələşdirmə: | 1. Bankda 15%-lik səhm payını təmin etmək üçün yeni buraxılan səhmlərin əldə edilməsi vasitəsilə həyata keçirilən səhm kapitalı qoyuluşu.<br><br>2. Layihə iki hissədə təşkil ediləcək sindikatlaşdırılmış kreditdir. AYİB bunun A-hissəsini (3 ilədək ödəniş müddəti ilə) maliyyələşdirəcək, B-hissəsinin isə (ilkin olaraq 18 aylıq, B-kreditorların razılığı olduqda isə növbəti 18 ay müddətinə uzadıla bilən ödəniş müddəti ilə) isə iştirakçı banklar tərəfindən maliyyələşdirilməsi gözlənilir. |
| Layihənin ümumi dəyəri: | |

| | |
|---|---|
| Ətraf-mühit təsirləri: | Unibank`ın öz əməliyyatlarını AYİB-in Yerli Banklar üçün Ətraf-Mühit Prosedurlarına uyğun olaraq həyata keçirməsi tələb olunacaqdır. Bu prosedurların həyata keçirilməsi zamanı bank özünün borcalanlarından minimum olaraq ölkənin və/və ya yerli sağlamlıq, təhlükəsizlik, ətraf-mühit və ictimai məsləhətləşmə qaydalarına əməl etməyi tələb edəcəkdir. |
| Texniki əməkdaşlıq: | Bu əməliyyatla bağlı olmasa da, Unibank iki layihə çərçivəsində texniki yardımdan faydalanmışdır:<br><br>(i) müvafiq kredit təsdiq etmə prosedur və proseslərinin qurulması istiqamətində Unibank`a köməklik edən məsləhətçilərin yardımı və<br><br>(ii) institusional quruculuq məsələlərinə diqqət yetirən məsləhətçilərin yardımı.<br><br>Texniki əməkdaşlıq vəsaitləri hesabına maliyyələşdirilən layihələr üzrə məsləhətçilik imkanları üçün məsləhətçilərin satınalınması bölməsinə baxın. |
| Şirkət üzrə əlaqələndirici şəxs: | Cənab Faiq Hüseynov, İdarəetmə Şurasının sədri<br><br>Tel: +994 12 598 22 44/45 |
| Biznes imkanları: | Biznes imkanları və ya satınalma məsələləri ilə bağlı müştəri şirkətlə əlaqə saxlayın. |
| Ümumi sorğular: | Satınalmalarla bağlı olmayan AYİB layihəsi üzrə sorğular: Tel: +44 20 7338 7168; Faks: +44 20 7338 7380 E-poçt: projectenquiries@ebrd.com |